5 noyabr / 2020

# Cinayətkar Paşinyan

Yurdumu işğal edib, "bura mənim" deyirdin,
Ruslara arxalanıb mənəm-mənəm deyirdin,
Qarabağda bəs denən, nə qələt eləyirdin?
Adın qaldı bu gündən sənin daban yalayan,
Cinayətkar, terrorçu Paşinyandır, Paşinyan.

Günahsız türk qanına batıbdı sənin əlin,
Satqın, riyakar, alçaq, kəsilər uzun dilin.
Türk ordusu gələndə qırılar, sınar belin,
Adın qaldı bu gündən sənin daban yalayan,
Cinayətkar, terrorçu, Paşinyandır, Paşinyan.

Kəlbəcərin qızılın mənimsədin, doymadın,
Qudurdun, torpağımda, məni nədən saymadın?
Bu qədər türkü qırıb, qəlbiniz soyumadı?
Adın qaldı bu gündən sənin daban yalayan,
Cinayətkar, terrorçu, Paşinyandır, Paşinyan!

Səni iti qovanla qovarıq torpağımdan,
İgidlər oylağından, Pənah xanın bağından.
Rədd olun mənim doğma, cənnət Qarabağımdan,
Adın qaldı bu gündən sənin daban yalayan,
Cinayətkar, terrorçu Paşinyandır, Paşinyan .

Düşmənçilik toxumu səpdi Zori Balayan,
Qan tökdü Nejde, Sarkis, Şaumyan, Aqanbekyan ,
Lənətlə xatırlanır Andranik, Lalayan..,
Adın qaldı bu gündən sənin daban yalayan,
Cinayətkar, terrorçu Paşinyandır, Paşinyan.

Kəndimi talan etdin, düz otuz il gözlədik,
Sərvətimi daşıdın, acı-acı izlədik.
Xalqımız cana doydu, sizi necə bizlədik,
Adın qaldı bu gündən sənin daban yalayan,
Cinayətkar, terrorçu Paşinyandır, Paşinyan.

Deyirsən babanındır, harda yan sözü varsa?
Başına qapaz dəyər, torpağı qamarlasan.
Gəbərdəndə meydinə ordum təzək yaparsa,
Adın qaldı bu gündən sənin daban yalayan,
Cinayətkar, terrorçu, Paşinyandır, Paşinyan.

İki yüz il idi ki, türkü qırıb çapırdın,
Yurdumun daş-qaşını acgözlüklə qapırdın.
Fitnə-fəsad törədib aranı çox qatırdın,
Adın qaldı bu gündən sənin daban yalayan,
Cinayətkar, terrorçu, Paşinyandır, Paşinyan.

# Şuşam çəmənə bürünüb



*Rauf*
*İLYASOĞLU*

Düşmən yolları bağlayıb,
Baxsam, Şuşam görünürmü?
Kirs dağımız qan ağlayır,
Al qumaşa bürünürmü?
Həsrət qaldım Xan bağına,
Yenə qalxaq Kirs dağına,
Dözdük Topxana dağına,
Buz bulaqlar görünürmü?
Şırlan, Turşu sızqa axır,
İstisu qəlbimi yaxır.
Cıdır düzü qəmli baxır,
Şahbulağım görünürmü?
İsa bulaq donub qalıb,
Bizi dərdə, qəmə salıb.
Daşaltını düşmən alıb,
Duman dağdan sürünurmu?
Vur düşməni, şanlı ordum,
Sinəm hasar, sipər oldum,
Azad olsun doğma yurdum
Həkərimiz görünürmü?
Ordum Hadruta çatıbdı,
Düşmənin başın qatıbdı,
Xalqım murada çatıbdı,
Qubadlımız görünürmu?
Füzulimiz azad oldu,
Cəbrayıla sevinc doldu,
Yolum açıq, doğru yoldu,
Kəlbəcərim görünürmü?
Ordum gəlir, düşmən! Qaçın!
Yol gözləyir qərib Laçın,
Hər tərəfə işıq saçın.
Qaragölüm görünürmü?
Çaxsa şimşək, yağsa dolu,
Şərəflidir şəhid yolu,
Biçir ordum sağı, solu,
Dostla düşmən bilinərmi?
Baxsam Ağdam görünərmi?